*Peşə təhsili və insan kapitalı. Cild 4, №4, 2021 s.30-33*

# İNKLÜZİV TƏHSİL PROSESİNDƏ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN FORMALAŞMASI



**Tunay Məmmədzadə,**
*Bakı Dövlət Universitetinin Qazax filialının magistri*
*e-mail: tunayabbas33@gmail.com*

**UOT**: 373; 373.2

**Xülasə.** *İnklüziv cəmiyyətə gedən yolun inklüziv təhsildən keçdiyini əsas göstərərək bu sahədə ölkəmizdə ciddi addımlar atıldığının şahidiyik. Sevindirici haldır ki, yeni tədris ilindən etibarən ölkəmizin səkkiz şəhər və rayonunda seçilən bir ümumtəhsil məktəbinin ibtidai təhsil səviyyəsindən inklüziv təhsilin həyata keçirilməsi nəzərdə tutuldu. Görülən işlərə kölgə salmadan deyə bilərik ki, məktəbəqədər təhsil pilləsindən inklüziv təhsilin həyata keçirilməsi istiqamətində tədqiqatlar, metodiki vəsaitlər demək olar ki, yox səviyyəsindədir, olanlar da tibbi model əsasında yazılmışdır. Bu məqsədlə inklüziv təhsil prosesində məktəbəqədər yaşlı uşaqların formalaşması mövzusunda tədqiqat aparmağı qarşıya məqsəd qoyduq. Düşünürük ki, əlilliyi olan məktəbəqədər yaşlı uşaqların inklüziv təhsili onların yaş xüsusiyyətlərinə uyğun olaraq müxtəlif inkişaf səviyyəsinə çatmağa və digər həmyaşıdları ilə eyni mühitə daha erkən adaptasiya olmağa imkan yaradacaqdır.*

***Açar sözlər:*** *əlillik, inklüziv cəmiyyət, inklüziv təhsil, ayrı-seçkilik, məktəbəqədər təhsil.*
***Key words:*** *disability, inclusive society, inclusive education, discrimination, preschool education.*
***Ключевые слова:*** *инвалидность, инклюзивное общество, инклюзивное образование, дискриминация, дошкольное образование.*

İstər beynəlxalq, istərsə də yerli mütəxəssislərin apardıqları tədqiqatlarda əldə olunan nəticə ondan ibarətdir ki, əlilliyi olan uşaqların cəmiyyətə inteqrasiyasının, sosiallaşmasının bünövrəsi məktəbəqədər yaş dövründən başlanmalıdır. Təbii ki, bu zaman uşaqlar hər kəsi olduğu kimi qəbul edir, bir-birində nəzərə çarpan fərqlilik onlarda müxtəlif narahatedici suallar yaratmır. Həmçinin məktəbəqədər yaş dövründə müəyyən əlilliyi olan uşaqlar və onların valideynləri müxtəlif növ zəruri məsləhətlər və dəstək alır, pedaqoji-korreksion və tibbi-sosial köməklə təmin olunurlar. Düşünürük ki, məktəbəqədər yaşlı uşaqların inklüziv tərbiyə və təliminin inkişafı xüsusi və kütləvi təhsil arasında yeni münasibətlərin yaranmasına zəmin yaradaraq, onların arasındakı maneələri aradan qaldırıb sərhədləri şəffaf edəcək [1; s.21].

Nəzərə alsaq ki, inklüziv təhsilin sosial model əsasında həyata keçirilməsi məqsədəuyğundur, o zaman tibbi modelin sıxışdırılaraq aradan qaldırılması işinə məktəbəqədər yaş dövründən başlamış olarıq. Bu, həm də cəmiyyətdə sosial-iqtisadi şəraiti, təhsil sisteminin xüsusiyyətlərini nəzərə alaraq, dünya ölkələrində həyata keçirilən modellərin mexaniki təqlidini tam şəkildə qəbul etməyə imkan verəcəkdir.

İnklüziv təhsil məktəbəqədər tərbiyə müəssisələrinin müvafiq maddi-texniki, proqram-

metodik və kadr təminatı olan zaman düzgün təşkil olunub həyata keçirilə bilər. Tam əminliklə qeyd edə bilərik ki, inklüziv uşaq bağçasında müəyyən əlillik kateqoriyalarına aid uşaqların tərbiyə və təlimini təşkil etmək olar. Məsələn, eşitmə, görmə, əqli, fiziki əlilliyi olan və olmayan uşaqların məktəbəqədər tərbiyə müəssisəsində heç bir maneə olmadan birgə təhsili mümkündür. Təbii ki, tərbiyəçilər müəyyən təlim strategiyalarını nəzərə alaraq təlim-tərbiyə işlərini qüsursuz yerinə yetirə bilərlər. Həmçinin burada uşaqların fiziki-psixoloji sağlamlıqları istiqamətində də lazımi şəraitin yaradılması diqqət mərkəzində olmalıdır. Tərbiyəçilərin nəzərə alması vacib olan bir neçə qrup strategiyaları ilə tanış olaq:

**1. Bütün qrupda olan uşaqlar üçün:**

*– məşğələnin planlaşdırılmasını hazırlamaq, mövzulara dair fəaliyyətləri planlaşdırmaq və sonda həyata keçiriləcək təlimi nəzərdən keçirtmək;*

*– istedadlı uşaqlar üçün əlavə fəaliyyətlər hazırlamaq;*

*– universal öyrənmə dizaynından (UÖD) istifadə edərək məşğələlərdə müxtəlif vasitələrdən – vizual, eşitmə, kinestetik və s. istifadəni təmin etmək;*

*– çevik olmaq və eyni öyrənmə bacarıqları və nəticələrini araşdırmaq üçün müxtəlif fəaliyyətlər təklif etmək;*

*– məşğələdən əvvəl uşaqlara öyrənəcəkləri mövzu barədə məlumat vermək (çünki təlimdə öyrənmə çətinlikləri olan uşaqların təkrar izahata ehtiyacı olur);*

*– uşaqların bir-birinə kömək edəcəkləri mühit yaradaraq ünsiyyət və əməkdaşlıq mədəniyyətini aşılamaq;*

*– dərs müddətində uşaqlar ilə qarşılıqlı münasibət qurmaq;*

*– uşaqları müşahidə etmək və onların işlərini yoxlamaq üçün qeydiyyat aparmaq;*

*– məşğələ boyunca uşaqların öyrəndiklərini və başa düşmələrini yoxlamaq;*

*– uşaqlardan nə gözlənildiyini onlara izah etmək;*

*– əsas anlayışlardan istifadə etmək və uşaqlara tez qavramadıqda səbrli olmağı aşılamaq;*

*– əlilliyi olan uşaqları onlara dəstək ola biləcək aktiv uşaqlarla birlikdə qruplaşdırmaq.*

**2. Eşitmə əlilliyi olan uşaqlar üçün:**

*– məşğələ prosesini daha asan anlamaları üçün eşitmə əlilliyi olan uşaqları qabaq cərgələrdə oturtmaq;*

*– məlumatların daha yaxşı mənimsənilməsi məqsədi ilə vizual vasitələrdən istifadə etmək;*

*– kiçikyaşlı uşaqların nitqi məktəbəqədər tərbiyə müəssisəsində formalaşır, məhz o zaman danışarkən həmin uşaqların dodaqlarınızı gördüyünə əmin olmaq (çünki onlar dodaqdan oxuyaraq müzakirəyə qoşula bilirlər);*

*– arxa fondakı səsləri azaltmaq, qrup müzakirəsi zamanı eyni anda yalnız bir uşağın danışmasını təmin etmək;*

*– eşitmə əlilliyi olan uşaqların başa düşməsi üçün əyani vəsaitlərin maksimallaşdırılması üçün otağın yaxşı işıqlandırılmasını təmin etmək;*

*– videolardan istifadə edərkən səsli materialların uşaqlar tərəfindən qavranılmasına diqqət etmək, əgər çətinlik yaranarsa, videonu dayandırıb onların anlaya, "eşidə" biləcəyi formada izahat aparmaq, başa düşüb, düşməmələrini dəqiqləşdirmək məqsədi ilə sual-cavab etmək;*

*– eşitməyən uşaqlarda nitq məhdudiyyətləri olması mümkündür. Bu zaman anlaşılmayan sözləri müzakirə etmək;*

*– qrup işləri zamanı uşaqlara daha fəal yaşıdları ilə işləməsinə şərait yaratmaq və onları daha fəal uşaqlarla cütləşdirmək;*

*– məlumatları aydın və sadə şəkildə təqdim etmək;*

*– daha aydın şəkildə tələffüz etmək.*

**3. Fiziki əlilliyi olan uşaqlar üçün:**

*– otaqda hərəkətin hər kəs üçün əlçatan olmasını təmin etmək;*

*– fiziki əlilliyi olan uşaqlar üçün otağın hər yeri, əyani vəsaitlər, informasiya materialları və təchizatlardan istifadənin əlçatan olmasına əmin olmaq;*

*– ayağında əlilliyi olan uşaqların hərəkəti üçün daha çox vaxt tələb olunduğunu nəzərə almaq;*

*– qrup işi və yerdəyişmə zamanı sinifdə hərəkət etməsi üçün uşağa kifayət qədər vaxt vermək;*

*– uşağın rəsm çəkməklə, qələm tutmaqla bağlı qolunda, əlində çətinliyi varsa, ona kömək edə biləcək aktiv uşaqlarla cütləşdirmək;*

*– uşaq tez yorulursa, onu tələsdirməmək,*

*fasilə etməsi üçün tövsiyələr vermək.*

**4. Görmə əlilliyi olan uşaqlar üçün:**

*– görmə əlilliyi olan uşaqların oturacaqlarının yerini düzgün müəyyənləşdirmək (məsələn, elə uşaqlar var uzağı yaxşı görmür, eləsi də var ki, yaxını görməkdə çətinlik çəkirlər. Tərbiyəçi belə incə məqamlara diqqət yetirməli və çalışmalıdır ki, onlar problem yaradılmayan yerlərdə otursunlar);*

*– təlim materiallarının irihəcmli plakatlarda olması daha məqsədəuyğundur;*

*– səsli materiallardan daha çox istifadə olunarsa, bu həm işin xeyrinə, həm də vizual görüntüləri səsli şəkildə şərh etməklə, uşaqların görməkdə çətinlik çəkdiyi görüntülərdə baş verənləri mənimsəməsinə kömək etmiş olar;*

*– görmə əlilliyi olan uşaqlara öyrəndiyini fərqli vasitə ilə nümayiş etdirməyə icazə vermək;*

*– görmə əlilliyi olan uşaqların vizual vasitələrlə təlimalma ehtimalı azdır və həmin vasitələrdən istifadəsi də az olacaq. Görmə əlilliyi olan uşaqlar təlim yerlərində (məsələn, tualetlər, idman zalı, musiqi otağı, yeməkxana, təlimat otağı, oyun meydançası və s.) oriyentasiya və səfərbərlikdə köməyə ehtiyac duyacaqlar. Onların bu ərazilərə bələd olması üçün uşaqlara vaxt vermək lazımdır ki, onu əhatə edən mühit ilə tanış olsun və ətrafda hərəkət edərkən inamlı olsun. Bağçanın planı və fövqəladə hallar üzrə prosedurları görmə əlilliyi olan uşaq üçün aydınlaşdırmaq lazımdır. Görmə əlilliyi olan uşaqlar adlar ilə simaları əlaqələndirməyə bilərlər. Ona görə də həmin uşaqlara yoldaşları ilə tanış olmaq üçün vaxt vermək, məqsədyönlü şəkildə yoldaşları ilə kiçik qruplar və ya fərdi şəkildə tanış ola biləcəkləri fəaliyyət və təcrübələr təşkil etmək lazımdır.*

**5. Əqli problemləri olan uşaqlar üçün:**

*– təlimatları bir neçə dəfə təkrarlamaqla eyni anda yalnız bir mərhələnin təlimatını vermək;*

*– böyük tapşırıqları kiçik parçalara ayıraraq aydın seçimlər vermək;*

*– fəaliyyətlərdə sadə sözlərdən istifadə etmək;*

*– məşğələləri müxtəlif üsullarla təqdim etmək (məsələn, əyani, səsli və s.);*

*– şifahi verilən təlimatları vizual (rəngli şəkillər, video, animasiyalar) materiallarla möhkəmləndirmək.*

**6. Ünsiyyət və inteqrasiya problemləri olan uşaqlar üçün: (əqli problemləri, nitq çətinlikləri və autizm sindromlu uşaqlar).**

*– məktəbəqədər yaşlı uşaqlarda ünsiyyəti yeni-yeni formalaşdırmaq (onların sıralarında gec dil açanlar da ola bilər. Ona görə də ilk vaxtlardan sadə və konkret dildə danışmaq daha məqsədəuyğundur. Belə uşaqlarla uzun cümlələrlə danışmaq tövsiyə olunmur);*

*– gündəlik nizam-intizam qaydaları tərtib etmək;*

*– fəaliyyətin bitməsi və digər fəaliyyətin başlanması haqqında məlumat verməyi gündəlik qaydaların bir parçasına çevirmək;*

*– daha az seçimlər vermək, əgər uşaqdan bir rəng seçməsi lazımdırsa, ona seçməsi üçün iki və ya üç seçim vermək;*

*– daha dəqiq seçimlər vermək və seçimləri açıq saxlamamaq ("İndi nə etmək istəyirsən?" soruşmaq yerinə, "Oxumaq, yoxsa çəkmək istəyirsən?" kimi sorğulamaqla mütləq daha yaxşı nəticə əldə edilir);*

*– növbə və sosial məsafə kimi xüsusi sosial qaydaları, bacarıqları öyrətmək;*

*– təlimatları təkrarlamaq və onların aydın olmasını təmin etmək üçün qısa cümlələr qurmaq [2, s.44-47].*

*2020-2021-ci tədris ilində dövlət ümumtəhsil məktəblərində inklüziv məktəbəhazırlıq qruplarının təşkili barədə Azərbaycan Respublikasının Təhsil naziri 6 may 2020-ci il tarixində F-216 nömrəli əmr imzalayıb [3]. Əmrlə tanışlıq onu deməyə əsas verir ki, bu əmr beşyaşlı uşaqların məktəbəhazırlıq qruplarına qəbulu ilə bağlı verilib. Deməli, hələ də məktəbəqədər təhsil müəssisələrinə əlilliyi olan uşaqların inklüziv qruplara qəbulu ilə bağlı qanun yoxdur. Halbuki ölkə prezidenti İlham Əliyevin 2017-ci il 14 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nda [4] təhsilin bütün pillələrində keyfiyyətli inklüziv təhsilin həyata keçirilməsi əsas vəzifə kimi təhsil ictimaiyyəti qarşısında qoyulub. Deməli, məktəbəqədər tərbiyə müəssisələri üçün də müvafiq qərarlar, qanunlar* işlənilib hazırlanmalıdır.

**Nəticə.** Məktəbəqədər tərbiyə müəssisələrinə əlilliyi olan uşaqların qəbul olunması valideynlərin ərizəsi və tibbi-psixoloji-pedaqoji komissiyanın rəyi əsasında aparılmalıdır. Düzdür, bu gün belə uşaqların təhsilin bütün pillələrində inklüziv təhsil almasında bir çox valideynlər maraqlı deyil. Məktəb yaşı dövründə əlilliyi olan uşaqlar evdə və yaxud xüsusi məktəblərdə təhsil ala bilirsə, məktəbəqədər tərbiyə müəssisələrində əlilliyi olan uşaqlara çox az rast gəlirik. Bu da, onu deməyə əsas verir ki, valideynlər təhsil sisteminin başlanğıcı olan məktəbəqədər təhsildən uşaqlarını məhrum etmiş olurlar.

## ƏDƏBİYYAT

1. Qasımov S., Kərimova E., Sultanova İ., Ağayeva T. İnklüziv təhsil (müəllimlər, tərbiyəçilər, tibb işçiləri və psixoloqlar üçün vəsait). Bakı, 2006, 167 səh.

2. Dr.Qrayms P., Marieke Stevens, Arlene de-la Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz. “İnklüziv sinifdə təlimin təşkili” mövzusunda ixtisasartırma proqramının oxu materialı. UNİCEF-in Azərbaycan nümayəndəliyi. Bakı, 2019, 80 səh.

3. 2020-2021-ci tədris ilində dövlət ümumtəhsil məktəblərində inklüziv məktəbəhazırlıq qruplarının təşkili barədə Azərbaycan Respublikası Təhsil nazirinin əmri.
https://old.edu.gov.az/az/page/451/18291

4. 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı.
http://www.e-qanun.az/framework/37269

T.Mammadzade

### Formation of the preschooler personality in inclusive education

**Abstract**

We are witnessing that serious steps have been taken in this area in our country, based on the fact that the path to an inclusive society is through inclusive education. It is gratifying that from the beginning of the new school year, the implementation of inclusive education from the level of primary education of a secondary school selected in eight major regions of the country is planned. Without overshadowing the work done, we can say that research and methodological aids for the implementation of inclusive education at the pre-school level are almost non-existent, and those that are written are based on the medical model. To this end, we aim to conduct research on the formation of preschool children in the process of inclusive education. We believe that inclusive education for preschool children with disabilities will enable them to reach different levels of development according to their age and to adapt earlier to the same environment as their peers.

Т.Мамедзаде

### Формирование дошкольников в процессе инклюзивного образования

**Аннотация**

Мы являемся свидетелями серьезных шагов в этой области в нашей стране, основанных на том факте, что путь к инклюзивному обществу лежит через инклюзивное образование. Отрадно, что с начала нового учебного года планируется внедрить инклюзивное образование с уровня начального образования средней школы, выбранной в восьми крупных регионах страны. Не заслоняя проделанную работу, можно сказать, что исследовательские и методические пособия по внедрению инклюзивного образования на дошкольном уровне практически отсутствуют, а те, что написаны, основаны на медицинской модели. С этой целью мы стремимся провести исследование формирования детей дошкольного возраста в процессе инклюзивного образования. Мы считаем, что инклюзивное образование для дошкольников с ограниченными возможностями позволит им достичь разных уровней развития в соответствии с их возрастом и раньше адаптироваться к той же среде, что и их сверстники.